*Azərbaycan Respublikası*
*Vəkillər Kollegiyası*
*Rəyasət Heyətinin*
*"13" sentyabr 2023-cü il tarixli*
*qərarı ilə təsdiq edilmişdir.*

# Vəkil qurumlarının, vəkil qurumlarında və fərdi qaydada fəaliyyət göstərən vəkillərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsi üzrə

# DAXİLİ NƏZARƏT QAYDALARI

(NÜMUNƏVİ FORMA)

## I. Ümumi müddəalar

**1.1.** "Vəkil qurumlarının, vəkil qurumlarında və fərdi qaydada fəaliyyət göstərən vəkillərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsi üzrə Daxili Nəzarət Qaydaları" (bundan sonra – Qaydalar) "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun, "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın, habelə Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin müvafiq qərarlarının (öhdəlik daşıyan şəxslərə, vəkillərə aid hissədə qəbul edilən qaydaların, digər norma və tələblərin) və digər hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmışdır.

**1.2.** Vəkillər (vəkil qurumları) öhdəlik daşıyan şəxslər olaraq aşağıdakı əməliyyatlarda iştirak etdikdə (əməliyyatları həyata keçirdikdə) "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini nəzərə almalıdırlar:

**1.2.1.** daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlarda;

**1.2.2.** müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması ilə əlaqədar əməliyyatlarda;

**1.2.3.** müştərinin bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması ilə əlaqədar əməliyyatlarda;

**1.2.4.** hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanmasının təşkili, habelə hüquqi şəxslərin səhmlərinin və ya paylarının alqı-satqısı ilə əlaqədar əməliyyatlarda.

**1.3.** Bu Qaydaların məqsədləri üçün istifadə olunan bəzi anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.3.1.** Məsul şəxs - vəkil qurumlarına münasibətdə vəkil qurumunun rəhbəri olan vəkil və ya fərdi qaydada fəaliyyət göstərən vəkilə münasibətdə isə həmin vəkilin özü.

**1.4.** Bu Qaydalarda istifadə olunan digər anlayışlar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda nəzərdə tutulmuş anlayışların mənalarını ifadə edir.

## II. Əhatə olunan məsələlər

**2.1.** Bu Qaydalar aşağıdakı məsələləri ehtiva edir:

**2.1.1.** müştərilərin, onların adından çıxış edən səlahiyyətli nümayəndələrin, benefisiar mülkiyyətçilərin, əməliyyatların eyniləşdirilməsinə və verifikasiyasına, müştərinin və benefisiar mülkiyyətçinin xarici dövlətlərin siyasi xadimlərinə aid olduğunun müəyyən edilməsinə imkan verən daxili, mərkəzləşdirilmiş arxivin yaradılması;

**2.1.2.** məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsinə dair daxili qaydaların hazırlanması;

**2.1.3.** cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə əməkdaşlara (vəkil qurumunda fəaliyyət göstərən vəkillərə, işçilərə) mütəmadi təlimlərin keçirilməsi;

**2.1.4.** Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və maliyyə monitorinqi orqanı ilə məlumat mübadiləsini həyata keçirməyə, həmçinin monitorinq olunmalı əməliyyatlarla bağlı müvafiq hesabatları hazırlamağa və təqdim etməyə məsul şəxsin (şəxslərin) təyin edilməsi;

**2.1.5.** şübhəli əməliyyatların aşkarlanması, qarşısının alınması və məlumatların Azərbaycan Respublikası Vəkillər Kollegiyasına və Maliyyə Monitorinqi Xidmətinə təqdim olunması.

## III. Eyniləşdirmə və verifikasiya tədbirləri

**3.1.** Vəkil qurumlarına, vəkillərə, vəkil köməkçilərinə, məsul şəxslərə, vəkil qurumdan çalışan digər şəxslərə anonim hesabların, uydurma adlara hesabların və anonim əmanət hesablarının açılması, anonim depozit sertifikatlarının buraxılması və bu cür əməliyyatlarda iştirak edilməsi qadağandır.

**3.2.** Aşağıdakı hallarda müştərinin və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası üçün tədbirlər görülməlidir:

**3.2.1.** işgüzar münasibətlər yaradılmasından əvvəl;

**3.2.2.** iyirmi min manat məbləğində (bundan sonra - limit) və ya bundan artıq məbləğdə həyata keçirilməsi gözlənilən hər hansı birdəfəlik əməliyyatdan əvvəl (bu hala həmçinin limit çərçivəsində həyata keçirilərək bir-biri ilə əlaqəsi olan və ümumi məbləği limitdən artıq olan bir neçə əməliyyat aiddir);

**3.2.3.** məbləğindən asılı olmayaraq, hesab açılmadan həyata keçirilməsi gözlənilən pul köçürməsindən əvvəl;

**3.2.4.** qiymətli kağızların, pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar olduqda;

**3.2.5.** müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduqda.

**3.2-1.**Vəkillər risk sahəsinə aid olan əməliyyatlarda birbaşa (bilavasitə) və ya dolayısı ilə iştirak etdikdə, bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulan müştərinin eyniləşdirilməsi və verifikasiyası tədbiri ilə yanaşı, milli risk qiymətləndirilməsində müəyyən olunmuş riskləri nəzərə almalı, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunla müəyyən edilmiş müvafiq tədbirləri, o cümlədən aşağıdakı tədbirləri də həyata keçirirlər (məlumatları öyrənirlər):

**3.2-1.1.** Sanksiya tətbiq olunan şəxslərin siyahılarında həmin müştərinin də qeyd olunub-olunmamasını;

**3.2-1.2.**Əməliyyatın maliyyə mənbəyi üzrə məlumatları;

**3.2-1.3.**Şəxsin kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə üzrə BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən ölkələrə və hüquqi/fiziki şəxslərə mənsubluğunu;

**3.2-1.4.** Şəxsin qüsursuzluğunu (məhkumluğunu);

**3.2-1.5.**Benefisiar mülkiyyətçi barədə məlumatları;

**3.2-1.6.** Şəxsin siyasi nüfuzlu şəxs olub-olmadığına dair məlumatları;

**3.2-1.7** Qanunvericiliklə və beynəlxalq təşkilatların bu sahə üzrə tövsiyələrinə uyğun olaraq digər zəruri məlumatları.

**3.3.** Əməliyyatın ümumi məbləği əməliyyatın icra olunmasından əvvəl məlum deyilsə, müştərinin və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası əməliyyatın məbləğinin limitdən artıq olduğu müəyyənləşdiyi anda həyata keçirilir.

**3.4.** Hüquqi şəxsin eyniləşdirilməsi onun nizamnaməsinin və dövlət qeydiyyatına alınması haqqında sənədin notariat qaydasında təsdiq olunmuş surəti əsasında aparılır. Vəkil hüquqi şəxsin adından çıxış edən səlahiyyətli nümayəndədən notariat qaydasında təsdiq olunmuş etibarnaməni tələb etməli və səlahiyyətli nümayəndənin eyniləşdirilməsi və verifikasiyası üçün tədbirlər görməlidir. Vəkil hüquqi şəxsin nizamnaməsi və onun dövlət qeydiyyatına alınması haqqında sənəd əsasında hüquqi şəxsin hüquqi ünvanını, təşkilati-hüquqi formasını, təsisçilərin adını, həmçinin hüquqi şəxsin hüquqi statusunu müəyyən etməlidirlər.

**3.5.** Fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd əsasında aparılır.

**3.6.** Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd və müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamə əsasında aparılır.

**3.7.** Eyniləşdirmə üçün təqdim olunan şəxsiyyəti təsdiq edən sənədin surəti, habelə müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamənin, nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamənin, notariat qaydasında təsdiq olunmuş hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatına alınması haqqında sənədin surətləri vəkil tərəfindən müvafiq qaydada saxlanılmalıdır.

**3.8.** Hüquqi şəxsin verifikasiyası üçün tətbiq edilən tədbirlər aşağıdakılardır:

**3.8.1.** hüquqi şəxsin təqdim etdiyi məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatlarla üzləşdirilməsi;

**3.8.2.** hüquqi şəxsin fəaliyyəti barədə kütləvi informasiya vasitələrindən, internet informasiya ehtiyatlarından və ya rəsmi nəşrlərdən məlumatların əldə olunması;

**3.8.3.** əldə olunan yeni məlumatların əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatları ilə üzləşdirilməsi.

**3.9.** Fiziki şəxsin verifikasiyası üçün tətbiq edilən tədbirlər aşağıdakılardır:

**3.9.1.** doğum haqqında şəhadətnamə, pasport, sürücülük vəsiqəsi və ya digər rəsmi sənəd əsasında doğum tarixinin təsdiqlənməsi;

**3.9.2.** mənzil-kommunal xidməti və ya qeyri-yaşayış sahələrindən istismar haqqı üçün mədaxil qəbzləri, yaxud mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi əsasında yaşayış yeri üzrə qeydiyyatın təsdiqlənməsi.

**3.10.** İşgüzar münasibətlərin məqsədi və mahiyyəti barədə məlumat müştəridən əldə edilməlidir.

**3.11.** Müştərinin işgüzar münasibətləri və həyata keçirilmiş əməliyyatlarına dair əldə olunmuş məlumatların mütəmadi qaydada yeniləşdirilməsi üzrə tədbirlər görülməlidir. Məlumatların mütəmadi qaydada yeniləşdirilməsi üzrə tətbiq olunan tədbirlər aşağıdakılardır:

**3.11.1.** həyata keçirilmiş əməliyyatın müştəri, onun sahibkarlıq fəaliyyəti və vəsaitlərinin mənbəyi barədə məlumatlara uyğun gəlməsinin təmin edilməsi məqsədilə həmin əməliyyatın təhlili;

**3.11.2.** yüksək riskli müştərilər və ya işgüzar münasibətlər barədə mövcud olan məlumatların tədqiq edilməsi yolu ilə müştərinin eyniləşdirilməsinə dair əldə olunmuş məlumatların və sənədlərin vaxtaşırı yeniləşdirilməsi.

**3.12.** Aşağıdakı yüksək riskli əməliyyatlara dair əlavə eyniləşdirmə tədbirləri tətbiq edilməlidir:

**3.12.1.** qeyri-rezident müştərilərlə əməliyyatlar;

**3.12.2.** pul vəsaitlərinin, qiymətli kağızların və ya digər əmlakın idarə olunması həvalə olunmuş hüquqi şəxslərlə əməliyyatlar;

**3.12.3.** nominal saxlayıcı olan və ya sənədli adsız səhmlər buraxmış hüquqi şəxslərlə əməliyyatlar;

**3.12.4.** xarici banklarla müxbir hesabları vasitəsilə həyata keçirilən əməliyyatlar;

**3.12.5.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda nəzərdə tutulan əməliyyatlar.

**3.13.** Tətbiq olunmalı əlavə eyniləşdirmə tədbirləri aşağıdakılardır:

**3.13.1.** hesabların və işgüzar əlaqələrin yoxlanması və ya digər üsullarla əməliyyatın həyata keçirilməsi məqsədinin və əməliyyatın mahiyyətinin aydınlaşdırılması;

**3.13.2.** hüquqi şəxs olan müştərinin səhmdarlarının və onların iştirak paylarının öyrənilməsi;

**3.13.3.** digər etibarlı mənbələr vasitəsilə müştəri, benefisiar mülkiyyətçi və əgər mümkündürsə, pul vəsaitlərinin və ya digər əmlakın mənbəyi barədə daha dəqiq məlumatların əldə edilməsi və üzləşdirilməsi.

**3.14.** Əməliyyatın tərəflərini "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunla müəyyənləşdirilmiş qaydada dəqiq eyniləşdirmək mümkün deyilsə və ya müştəri və ya benefisiar mülkiyyətçi barədə eyniləşdirmə məlumatlarının təqdim edilməsindən imtina edilirsə, habelə müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığı aşkarlandıqda, vəkil müvafiq əməliyyatı həyata keçirməməli, işgüzar münasibətləri yaratmamalı, hesab açmamalı, bununla bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına və maliyyə monitorinqi orqanına məlumat verməlidir.

**3.15.** İşgüzar münasibətlər yaradıldıqdan sonra müştəri və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilmirsə, müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr varsa, habelə müştərinin işgüzar münasibətlərinin mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün deyildirsə, vəkil işgüzar münasibətlərə xitam verməli və bununla bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına və maliyyə monitorinqi orqanına məlumat verməlidir.

**3.16.** Fəaliyyət xüsusiyyətləri nəzərə alınaraq, müştərinin və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi üçün qanunla müəyyən edilmiş qaydada əlavə sənədlərin təqdim olunması tələb edilə bilər.

**3.17.** Daşınmaz əmlakın alğı-satqısı üzrə vasitəçilik xidməti göstərilərkən eyniləşdirmə tədbirləri yalnız limitdən yuxarı məbləğdə nağd şəkildə aparılan əməliyyatlar həyata keçirilərkən tətbiq etməlidirlər.

**3.18.** Vəkil "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunun 11-ci maddəsinə uyğun olaraq, müvafiq əməliyyatlara dair məlumat və sənədləri Maliyyə Monitorinq Xidmətinə və nəzarət orqanına, o cümlədən risk sahələri üzrə həyata keçirdiyi əməliyyatlar barədə Vəkillər Kollegiyasına bu əməliyyatı keçirdiyi andan 3 gün ərzində hesabat verməlidir.

## IV. Şübhəli əməliyyatların aşkarlanması, qarşısının alınması və məlumatların təqdim olunması

**4.1.** Şübhəli əməliyyatlar əsas etibarı ilə müştərinin şübhəli davranışı, qiymətli kağızlarla bağlı aparılan əməliyyatlar və digər əməliyyatlar zamanı aşkar oluna bilər.

**4.2.** Müştərinin şübhəli davranışı ilə bağlı əlamətlər aşağıdakılar ola bilər:

**4.2.1.** eyniləşdirmə prosedurlarının həyata keçirilməsinə etiraz etməsi;

**4.2.2.** eyniləşdirmə və əməliyyata dair məlumatları əsassız gecikmələrlə təqdim etməsi;

**4.2.3.** mövcud olmayan əlaqə məlumatları təqdim etməsi;

**4.2.4.** əməliyyata dair sualların cavablandırılmasından yayınması və ya əməliyyatın mahiyyətinə/təyinatına dair müxtəlif yayındırıcı cavablar verməsi;

**4.2.5.** təqdim etdiyi məlumatlarda uyğunsuzluqların və ziddiyyətli məqamların olması;

**4.2.6.** saxta sənədlər təqdim etməsi;

**4.2.7.** hüquqi şəxsi təmsil edən şəxsin (nümayəndənin) həmin hüquqi şəxs barədə məlumata malik olmaması;

**4.2.8.** müqavilənin daha səmərəli şərtləri ilə maraqlanmadan, ona vaxtından əvvəl xitam verilməsi şərtlərinə qeyri-adi maraq nümayiş etdirməsi;

**4.2.9.** benefisiar mülkiyyətçinin qısa müddətdə müəyyən edilməsini mümkün etməyən mürəkkəb və yaxud bir neçə pilləli struktura malik olan hüquqi şəxsin təsis etməsi.

**4.3.** Qiymətli kağızlarla bağlı aparılan şübhəli əməliyyatlara aşağıdakılar aid olar bilər:

**4.3.1.** qiymətli kağızların alışı və satışı üzrə eyni şərtlərlə tapşırıqlar verilərək ticarətin həyata keçirilməsi təəssüratının yaradılması;

**4.3.2.** qısa müddət ərzində bir neçə müştərinin eyni qiymətli kağızların alqı-satqısını həyata keçirmək məqsədi ilə hesab açması;

**4.3.3.** heç bir aydın məqsədi olmadan investorun qısa müddət ərzində investisiya fondunun paylarını (səhmlərini) satın alması və dərhal geri satması.

**4.4.** Digər əməliyyatlar zamanı şübhəli əlamətlərə aşağıdakılar aid ola bilər:

**4.4.1.** müştərinin profilinə uyğun olmayan iri məbləğdə və ya yüksək intensivliklə xırda məbləğlərdə əməliyyatların aparılması;

**4.4.2.** məcburi qaydada hesabat verilməsi tələb olunan limitdən bir qədər aşağı məbləğdə nağd əməliyyatların müntəzəm qaydada aparılması və s.

**4.5.** Şübhəli əməliyyatlara aşağıdakı əməliyyatlar aiddir:

**4.5.1.** şübhəliliyi təsdiqlənmiş əməliyyatlar. Bu əməliyyatlar barədə dərhal vəkil tərəfindən Vəkillər Kollegiyasına və Maliyyə Monitorinqi Xidmətinə məlumat təqdim edilir;

**4.5.2.** şübhəlilik üçün yetərli əsaslar olmayan əməliyyatlar. Bu halda müştəri yüksək risk kateqoriyası daxilində nəzarətdə saxlanılır və növbəti əməliyyatları davamlı şəkildə monitorinq olunur;

**4.5.3.** şübhəlilik əsasları aradan qalxan (təsdiqlənməyən) əməliyyatlar. Bu halda əməliyyatın şübhəlilik statusu götürülür, lakin müştərinin həyata keçirəcəyi növbəti əməliyyatları dövri olaraq monitorinq olunur.

**4.6.** Şübhəli əməliyyat aşkar olunduqda, bu əməliyyatdan imtina edilməklə və digər qanuni vasitələrlə onun qarşısının alınması üçün tədbirlər görülməlidir.

**4.7.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunvericiliyin pozulması halları aşkar edildikdə, bu zaman Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 70-3.4-cü bəndinə əsasən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci (Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə **protokol** Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından – Rəyasət Heyətinin sədri və onun müavinləri tərəfindən tərtib edilir həmin protokol baxılması üçün aidiyyəti rayon (şəhər) məhkəməsinə təqdim təqdim olunmalıdır.

**4.8.** Bu Qaydaların 4.7-ci bəndində nəzərdə tutulan pozuntular Vəkillər Kollegiyası, vəkil qurumu və ya Maliyyə Monitorinq Xidməti tərəfindən aşkar edilə bilər. Bu zaman aşkar edilmiş inzibati xəta haqqında iş üzrə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının adından protokol Vəkillər Kollegiyasının müvafiq vəzifəli şəxsləri və ya Vəkillər Kollegiyasının razılığı ilə vəkil qurumunun rəhbəri tərəfindən tərtib edilib müvafiq rayon (şəhər) məhkəməsinə təqdim olunmalıdır.

**4.9.** Bu Qaydalarda nəzərdə tutulan və məlumat verilməsi zəruri olan məlumatlar müvafiq qaydada Vəkillər Kollegiyasına və Maliyyə Monitorinqi Xidmətinə təqdim olunmalıdır.

## V. Məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsi

**5.1.** Bu Qaydalarda nəzərdə tutulan məlumatların sənədləşdirilməsi, saxlanması, məxfiliyin təmin edilməsi və məlumatların vaxtında Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim olunması vəkil qurumu, məsul şəxslər və fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təmin olunmalıdır.

**5.2.** Bu Qaydaların əhatə etdiyi məsələlərə aid olan aşağıdakı məlumatlar və sənədlər qeydə alınır və saxlanılır:

**5.2.1.** müştərinin, benefisiarın və ya səlahiyyətli nümayəndənin eyniləşdirmə və verifikasiya sənədləri;

**5.2.2.** müştəri tərəfindən həyata keçirilmiş pul vəsaitləri və ya qiymətli kağızlarla əməliyyatlara dair sənədlər (hesabdan çıxarışlar, əməliyyatların aparılması üçün əsas və s.)

**5.2.3.** xarici dövlətlərin siyasi xadimlərinin əməliyyatlarına dair əldə olunmuş məlumatlar və sənədlər;

**5.2.4.** qeyri-adi əməliyyatların təyinatı və mahiyyəti ilə bağlı əldə olunmuş bütün məlumatlar və sənədlər, habelə bununla əlaqədar hazırlanmış yazılı təhlil hesabatları;

**5.2.5.** cari və şübhəli əməliyyatlar barədə Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim olunmuş məlumatlar və sənədlər, o cümlədən hər hansı bir əməliyyatın və ya işgüzar əlaqənin şübhəli olub-olmamasını müəyyən etmək məqsədilə aparılmış təhlil nəticəsində əldə olunmuş məlumatlar və sənədlər;

**5.2.6.** Maliyyə Monitorinq Xidmətinin və aidiyyəti qurumun (təşkilatın) yazılı sorğuları və bu sorğulara verilmiş cavablar;

**5.2.7.** Qanunun tələblərinə əməl edilməsi ilə bağlı həyata keçirilmiş nəzarət tədbirləri üzrə nəzarət orqanları ilə aparılmış yazışmalar və sənədlər.

**5.3.** Müştərinin eyniləşdirilməsi və yoxlanması üçün vəkilin aldığı bütün sənədlər, həmçinin müştərilər tərəfindən həyata keçirilmiş əməliyyatlar üzrə təsdiqedici sənədlər, kağız və ya elektron daşıyıcılarda olmalarından asılı olmayaraq, müştəri ilə hüquqi münasibətlər başa çatdıqdan sonra və ya əməliyyatın həyata keçirilməsindən sonra aşağıda göstərilmiş müddət ərzində vəkil tərəfindən arxiv sənədlərinin saxlanılması tələblərinə uyğun olaraq mərkəzləşdirilmiş arxivdə saxlanılır:

**5.3.1.** Müştərinin, benefisiarın eyniləşdirmə sənədləri - müştəri ilə vəkil arasında vəkil və ya aktivlərin idarə edilməsi ilə bağlı müqavilələrin bağlandığı və ya Müştəri ilə hüquqi münasibətlər başa çatdığı tarixdən ən azı 5 (beş) il müddətində;

**5.3.2.** Müştərinin həyata keçirdiyi əməliyyat üzrə sənədlər (vəkilə müqavilə əsasında verililən yazılı tapşırıqlar, bağlanılan ünvanlı satış əqdləri, əməliyyatların həyata keçirilməsi üçün əsaslar və digər sənədlər) - əməliyyatın həyata keçirilməsindən sonra ən azı 5 (beş) il müddətində;

**5.3.3.** Müştərilərin şübhəli əməliyyatlarının araşdırılması gedişatında vəkilin əldə etdiyi bütün sənədlər, Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim edilmiş sənədlərin surətləri, həmçinin həmin məsələ üzrə bütün yazışmanın surəti əməliyyatın həyata keçirilməsi tarixindən 5 (beş) il müddətində.

**5.4.** Vəkil tərəfindən müvafiq sənədlər vəkil dosyesində (müvafiq qovluqda) saxlanılmalıdır.

## VI. Məlumat gizliliyinin təmin edilməsi qaydası

**6.1.** Vəkil qurumları, məsul şəxslər və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən məlumatların qeydə alınması və saxlanılması sənədlərin reyestrinin aparması vasitəsilə həyata keçirilir. Sənədlərin reyestri bu Daxili Nəzarət Sisteminin V hissəsində nəzərdə tutulmuş məlumatların sənədləşdirilərək qeydə alındığı məlumat toplusudur.

**6.2.** Sənədlərin reyestrinə daxil edilən məlumatlar məxfi məlumatlar hesab edilir və vəkil qurumunun rəhbəri (fərdi qaydada fəaliyyət göstərən vəkil) və məsul şəxs reyestrə girişi olan şəxslər hesab olunur.

**6.3.** Sənədlərin reyestri elektron və ya kağız daşıyıcılarda saxlanıla bilər.

**6.4.** Reyestr məlumatlarının sığorta nüsxəsi yaradılır və ayrıca elektron daşıyıcıda heç bir lokal, yaxud qlobal şəbəkəyə çıxışı olmamaq şərti ilə saxlanılır.

**6.5.** Sənədlərin reyestrində sənəd haqqında məlumat müvafiq sənədin saxlanma müddəti başa çatanadək saxlanılır. Sənədlərin müəyyən edilmiş saxlanma müddətlərinin azaldılması qadağandır. Hər bir vəkil öz mülahizəsinə görə sənədlərini onların əhəmiyyətini nəzərə alaraq daha uzun müddətdə saxlaya bilər.

**6.6.** Reyestrə daxil edilən hər bir məlumata ayrıca nömrə verilir və bu məlumatların əks olunduğu sənədlər arxivdə həmin nömrə əsasında eyniləşdirilir.

**6.7.** Vəkil sənədləşdirilmiş məlumatların təklükəsizliyini, məxfi saxlanılmasını və səlahiyyəti olmayan şəxslər tərəfindən istifadə olunmamasını təmin etməlidir.

## VII. Vəkillər Kollegiyasına hesabatların və məlumatların təqdim edilməsi

**7.1.** Tələb olunduğu hallarda vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən Vəkillər Kollegiyasına müvafiq hesabatlar və məlumatlar təqdim olunmalıdır.

**7.2.** Vəkil tərəfindən aşkar edilmiş şübhəli əməliyyatlar barədə məlumatlar dərhal elektron və yazılı qaydada Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim olunmalıdır.

**7.3.** Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən Vəkillər Kollegiyasına hesabat təqdim olunarkən, həmin hesabatda bu Daxili Nəzarət Sistemində nəzərdə tutulmuş və aşkar edilmiş pozuntular barədə məlumatlar, görülmüş tədbirlər barədə məlumatlar əks olunmalı və ya belə pozuntular və tədbirlər olmadıqda bununla bağlı qeydlər aparılmalıdır.

**7.4.** Hesabatlar vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən yazılı sənəd formasında və ya həmin hesabatları tam əks edən elektron formada təqdim edilir. Hesabatlar sənəd formasında təqdim edildikdə, onların səhifələri nömrələnməli, vəkil qurumunun rəhbəri (fərdi qaydada fəaliyyət göstərən vəkil), habelə məsul şəxs tərəfindən imzalanmalı, möhürü ilə təsdiqlənməlidir.

**7.5.** Vəkillər Kollegiyasının müraciəti (sorğusu) əsasında vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən bu Daxili Nəzarət Sisteminin 7.4-cü bəndinin 2-ci cümləsinin tələblərinə uyğun həmin müraciətə (sorğuya) cavab verilməlidir.

## VIII. Digər məsələlər

**8.1.** Bu Daxili Nəzarət Sistemində nəzərdə tutulmayan, lakin vəkillərə aid olan məsələlər “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunda və digər hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara (normalara, qaydalara) uyğun tənzimlənir.

**8.2.** Vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabına məqsədi bəlli olmayan, təyinatı şübhə doğuran və əsası olmayan vəsaitin köçürülməsi, habelə vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabından vəsaitin təyinatı aydın olmayan və şübhəli məsələlərə yönəldilməsi (bu məqsədlə vəsaitin başqa hesaba köçürülməsi) yolverilməzdir.

**8.3.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlərlə əlaqədar qəbul edilən (təsdiq edilən) hüquqi aktlardan, habelə Milli Fəaliyyət Planlarından, Tədbirlər Planından, müvafiq məktublardan və göstərişlərdən irəli gələn və vəkilə aid olan tövsiyələrin (tapşırıqların) icrası müvafiq qaydada təmin edilməlidir.

**8.4.** Vəkil qurumları, bütün vəkillər, vəkil köməkçiləri, vəkil qurumlarında çalışan digər əməkdaşlar bu Daxili Nəzarət Sisteminin tələblərinə riayət etməlidirlər.

**8.5.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati məsuliyyət, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayət məsuliyyəti yaradır.